# Xalq sənətlərimiz Özbəkistan sərgilərində



**Özbəkistanın Mədəniyyət Nazirliyi, Fərqanə Vilayət Hakimliyi və "Hunarmand" (Dulusçuluq) Assosiasiyasının birgə layihəsi ilə bu ölkənin Kokand şəhərində II Beynəlxalq Xalq Tətbiqi Sənəti Festivalı, Riştan şəhərində isə Beynəlxalq Dulusçuluq Forumu keçirilib.**

Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzindən (AMM) bildirilib ki, tədbirlərə dünyanın 70 ölkəsindən gələn dulusçular, sənətşünaslar, ekspertlər, saxsı ustaları və biznes nümayəndələri qatılıblar. Ölkəmizi bu tədbirlərdə AMM təmsil edib.

Kokand şəhərindəki qədim Abdullaxan malikanəsinin qarşısındakı mərkəzi parkda təşkil edilən sərgidə hər ölkənin guşəsində iştirakçıların əl işləri nümayiş olunub.

Azərbaycana ayrılmış stenddə dəri rəssamları, miniatür və qurama ustaları Pərvanə və Lalə Eyyubovalar, ağac üzərində oyma üzrə sənətkarlar Ələkbər Məmmədov və Tofiq Əliyev öz əl işlərini nümayiş etdiriblər.

Guşədə Azərbaycan Mədəniyyət Mərkəzinin kitab və suvenirlərdən ibarət sərgisi də yer alıb. Stenddə Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatına dair nəşrlər, habelə ölkəmizin təbliğinə dair Heydər Əliyev Fondu tərəfindən buraxılan kitablar, Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlarla bağlı nəşrlər nümayiş etdirilib.

Açılış mərasimində çıxış edən Özbəkistan Prezident Administrasiyası Sosial inkişaf departamentinin rəhbəri Odil Abdurahmanov qeyd edib ki, son illər bu ölkədə 100-dən çox festival və forum keçirilib, II Beynəlxalq Xalq Tətbiqi Sənəti Festivalı isə incəsənətin, dostluğun və istedadın inkişafına xidmət edir.

Dünya sənətkarlar şurasının prezidenti Səad əl-Qəddumi, Fərqanə vilayətinin hakimi Hayrullo Bazarov festivalın xalqlar arasında dostluğun möhkəmlənməsində mühüm rol oynadığını vurğulayıblar.

Festivalın 2-ci günü Böyük İpək Yolunun üzərində olan qədim Riştan şəhərində dünyada tanınan dulusçu Əlişir Nəzirovun böyük emalatxanasında keçirilən sərgi və "XXI əsrdə dulusçuluq sənəti: ənənə və müasirlik" adlı konfransda da Azərbaycandan gələn qonaqlar iştirak ediblər. Həm Kokand, həm də Riştan şəhərlərində keçirilən sərgilərdə Azərbaycan sənətkarlarının əl işlərinə böyük maraq olub.

Konfransda bildirilib ki, Riştan şəhəri bütün dünyada dulusçuluq və saxsı sənətkarlığı mərkəzi kimi tanınıb. Bu şəhərin sənətkarları beynəlxalq sərgilərdə daim fərqlənirlər. Onların, eləcə də xarici ustalar, dizaynerlər və iqtisadçıların iştirakı ilə "Dulusçuluq və bazar iqtisadiyyatı" adlı dəyirmi masa da maraqla qarşılanıb.

***XQ***

Xalq qəzeti .- 2023.- 29 sentyabr.- S.10.